## Elm və Təhsil Nazirliyi yanında İctimai Şuraya üzvlərin və seçicilərin qeydiyyatı barədə

# Elan

**“İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, Elm və Təhsil Nazirliyi yanında İctimai Şuraya üzvlüyə namizədlərə, seçicilərə dair tələblər və qeydiyyat qaydası:**

**1. Namizədlərə dair tələblər:**

- İctimai Şurada üzvlüyə yüksək mənəvi, əxlaqi keyfiyyətlərə, elm və təhsil sahəsi üzrə təcrübə və biliyə malik Azərbaycan Respublikasının 16 yaşına çatmış hər bir fəaliyyət qabiliyyətli vətəndaşının namizədliyi irəli sürülə bilər;

- Hər bir vətəndaş cəmiyyəti institutu İctimai Şuranın üzvlüyünə yalnız bir namizəd irəli sürə bilər;

- İctimai Şurada üzvlüyə Elm və Təhsil Nazirliyi əməkdaşlarının namizədlikləri irəli sürülə bilməz.

**Namizədlərin qeydiyyatı:**

Namizədin qeydiyyatı məsələsinə baxılması üçün aşağıdakı sənədlər təqdim olunmalıdır:

1. İctimai Şurada üzvlüyə namizədin irəli sürülməsi barədə müraciət (telefon və elektron poçt ünvanı göstərilməklə);

2. namizədin şəxsiyyət vəsiqəsinin notariat qaydasında təsdiq edilmiş surəti;

3. namizədin tərcümeyi-halı;

4. namizəd hər hansı bir vətəndaş cəmiyyəti institutunun üzvü olduğu halda, həmin üzvlüyü təsdiq edən sənədin surəti;

5. namizədin elm və təhsil sahəsi üzrə təcrübə və ya biliyə malik olmasını sübut edən sənədin (əmək kitabçası və digər təsdiqedici sənədlər) notariat qaydasında təsdiq olunmuş surəti.

Müraciətə namizəd barədə geniş məlumat verən digər sənədlər də əlavə edilə bilər.

**2. Seçicilərə dair tələblər:**

- İctimai Şuraya seçkidə seçici qismində yalnız vətəndaş cəmiyyəti institutlarının təmsilçiləri iştirak edə bilərlər;

- İctimai Şuraya seçkidə seçici qismində iştirak etməsi üçün hər bir vətəndaş cəmiyyəti institutu yalnız bir təmsilçisinin namizədliyini irəli sürə bilər;

- Seçki komissiyasının üzvləri İctimai Şuraya seçkidə seçici qismində çıxış edə bilməzlər.

**Seçicilərin qeydiyyatı**

Seçicinin qeydiyyatı məsələsinə baxılması üçün aşağıdakı sənədlər təqdim olunmalıdır:

1. seçicinin (vətəndaş cəmiyyəti institutunun təmsilçisi) qeydiyyata alınması üçün müraciət;

2. seçicinin şəxsiyyət vəsiqəsinin notariat qaydasında təsdiq edilmiş surəti;

3. vətəndaş cəmiyyəti institutunun dövlət qeydiyyatını təsdiq edən sənədin notariat qaydasında təsdiq edilmiş surəti;

4. vətəndaş cəmiyyəti institutunun nizamnaməsinin notariat qaydasında təsdiq edilmiş surəti.

**3. Sənədlərin qəbulu və baxılması**

Namizəd və seçicilərin qeydiyyatı məsələsinə elm və təhsil nazirinin əmri ilə yaradılmış seçki komissiyası tərəfindən baxılır.

Qeydiyyat üçün sənədlər elektron qaydada təqdim edilir. Sənədlər mövzu hissəsində “Namizəd” və ya “Seçici” yazılmaqla shura@edu.gov.az elektron poçt ünvanına göndərilməlidir.

Qeydiyyat üçün sənədlər **2023-cü ilin 30 dekabr tarixindən** qəbul edilir. Sənədlərin qəbulu müddəti **2024-cü il 31 yanvar tarixində başa çatacaq.**